# Miçiqan Universiteti

**Yerləşir:** ABŞ, Miçiqan ştatı, Enn Arbor şəhəri
**Yaranma tarixi:** 1817-ci il 26 avqust
**Tipi:** Dövlət
**Akademik heyəti:** 6771
**Tələbələrin sayı:** 43625 nəfər
**Rəsmi saytı:** www.umich.edu

Miçiqan Universiteti (University of Michiqan) Amerikanın ən nüfuzlu və tanınmış dövlət ali məktəblərindən biridir. Universitet ABŞ-ın Miçiqan ştatının Enn Arbor şəhərində yerləşir. Böyük Britaniyanın "The Times Higher Education World Reputation" jurnalının 2016-cı il üçün reytinq sıralamasında 14-cü, "QS World Universities Rankings" jurnalının 2015-2016-cı il reytinqində 100 ən yaxşı ali məktəb arasında 30-cu yerdədir. Amerika Universitetləri Assosiasiyasının ilk üzvlərindən olan Miçiqan Universiteti dünyanın ən nüfuzlu elmi-tədqiqat mərkəzlərindən biridir.



## Tarixi

Miçiqan Universiteti 1817-ci ildə Detroyt şəhərində Miçiqan ştatının qubernatoru və hakimləri tərəfindən yaradılıb. Universitetin banilərindən olmuş Con Monteyt təhsil ocağının ilk prezidenti kimi tarixə düşüb. 1837-ci ildə Miçiqan ştatının birinci qubernatoru Stivens Mason universitetin Enn Arbor şəhərinə köçürülməsinə nail olub. Burada universitetə 40 akrlıq (16 hektar) ərazi ayrılıb. Enn Arbor şəhərində fəaliyyətə başlayan universitetdə ilk dərslər 1841-ci ildə keçirilib və burada çalışan iki professor yeddi tələbəyə dərs keçib. 1845-ci ildə Miçiqan Universitetini 11 məzun bitirib. 1871-1909-cu illərdə universitetə rəhbərlik etmiş Ceyms Encl xüsusi səy göstərərək stomatologiya, memarlıq, mühəndislik, idarəetmə və tibb fakültələrini yaradıb.

Miçiqan Universiteti seminar məşğələsini tətbiq etmiş ilk Amerika universitetidir. 1900-1920-ci illərdə universitetin kampusunda stomatologiya və əczaçılıq, kimya, təbiət elmləri üçün binalar, Hill auditoriyası, böyük hospital və kitabxana kompleksləri, iki yataqxana tikilib. İkinci Dünya müharibəsi zamanı Miçiqan Universitetində torpeda gəmiləri hazırlanıb, hərbi dəniz qüvvələri, hava və quruda müdafiə, radiolokasiya qurğuları yaradılıb.

1950-ci ildə burada təhsil alan tələbələrin sayı 21 min nəfərə çatıb. 1959-cu ildə "Ford Motor" kompaniyası Miçiqan ştatının cənub-şərq hissəsində müvafiq tələbatı nəzərə alaraq ali təhsil müəssisəsinə 196 akrlıq ərazi bağışlayıb. Həmin ərazidə universitetin Derborn kampusu salınıb. Miçiqan Universiteti "soyuq müharibə " və kosmik rəqabət dövründə strateji tədqiqatlar məqsədilə əsas dövlət subsidiyası alan tədqiqat mərkəzinə çevrilib və nüvə enerjisinin istifadəsində dövlətə köməklik göstərib.

1960-cı il oktyabrın 14-də ABŞ prezidentliyinə namizəd Con Kennedi "Miçiqan İttifaqı" adlı tələbə klubunun binasında hazırda Sülh Korpusu (ABŞ-da müstəqil federal agentlik) adlanan konsepsiyanı irəli sürüb. 1965-ci ildə Miçiqan Universitetinin 3000 tələbə və müəllimi ABŞ-ın Cənub-Şərqi Asiyadakı siyasətinə qarşı aksiya keçirib.

Universitetə ilk qız tələbələr 1871-ci ildə qəbul olunub. 1980-ci illərdə universitetdə ictimai və dəqiq elmlər üzrə tədqiqatların aparılması üçün yardımın məbləği artırılıb. 1980-1990-cı illərdə Miçiqan Universitetində xəstəxana kompleksi, inzibati binalar tikilib, kompüter və informasiya texnologiyaları sürətlə inkişaf edib.

2000-ci ilin əvvəllərində universitetə dövlət tərəfindən edilən yardımların məbləği xeyli aşağı düşüb, bu da universitet administrasiyası və həmkarlar ittifaqları arasında qarşıdurmaya gətirib çıxarıb. 2009-cu ildə universitet daha 30 böyük bina, kosmik laboratoriya istifadəyə verib.

Miçiqan Universiteti kompüter şəbəkəsi (Merit Network) yaradan ilk elmi-tədqiqat mərkəzlərindən biridir. Universitetin məzunu olmuş Klod Şenon riyaziyyatda mövcud olan informasiya nəzəriyyəsinə önəmli yeniliklər gətirib, Conas Solk poliomielit xəstəliyinə qarşı vaksin kəşf edib. Miçiqan ştatının Nortern Louer yarımadasında yerləşən Bioloji stansiya ABŞ-dakı 47 biosfer qoruqlarından biridir. Universitet optika, virtual yaddaş modeli, simsiz kompleksli mikrosistem və sosial elmlər sahəsində böyük uğurlar əldə edib. Miçiqan Universitetində müharibə, silahlı qüvvələr sahəsi xüsusi öyrənilir və bu məqsədlə yeni-yeni qurğular yaradılır. Ali təhsil müəssisəsinin nəzdində Qrup dinamikası, Siyasi tədqiqatlar, Əhalinin məskunlaşması tədqiqatları mərkəzləri, Siyasi və sosial tədqiqatlar konsorsiumu fəaliyyət göstərir.

2006-cı ildə Miçiqan Universiteti Miçiqan Ştat Universiteti və Veyn Ştat Universiteti ilə birgə tədqiqatlar koridoru müəyyənləşdirib. Nəticədə bu universitetlər ABŞ-ın yüksək sürətli kompüter şəbəkə infrastrukturu olan Lambda Raillə elektron şəbəkə yaradıb. Miçiqan Universiteti, Miçiqan Ştat Universiteti və Veyn Ştat Universiteti ilə Moskva Dövlət Universiteti arasında saniyədə 10 milyard bit verilənlərin ötürülməsi həyata keçirilir, bu da adi İnternetdən 1000-10000 dəfə sürətlidir.

## Universitet bu gün

Miçiqan Universiteti üç tələbə şəhərciyindən ibarətdir: Enn Arbor, Derborn və Flint. Universitetin bu ərazilərdə 524-dən çox inzibati binası var. Enn Arbor şəhərində Miçiqan Universitetinin 4 kampusu yerləşir - Şimali, Mərkəzi, Tibbi və Cənubi kampuslar. Plimut Yolu adlanan ərazidə universitetin Tibb şəbəkəsi salınıb. Burada tibbi məktəblər, ambulator qayğı və diaqnostika mərkəzləri, bir neçə cərrahiyyə binaları və s. mövcuddur.

Universitet ilk dəfə 1837-ci ildə Mərkəzi kampusda yerləşib. Kampusun binaları çox qədimdir və qotik, klassik üslubda inşa edilib. Şimali kampus 1952-ci ildə istifadəyə verilib. Burada müasir üslubda tikilmiş binalar, universitetin ən böyük yataqxanası olan Bursli Holl və çoxlu sayda kompüter laboratoriyaları, videostudiyaları, 3D virtual otaqları özündə birləşdirən Duderstadt mərkəzi yerləşir.

Miçiqan Universiteti yataqxana sisteminin böyüklüyünə görə ABŞ-da altıncı yerdə durur. Yataqxanalar üç ərazidə cəmlənib - Mərkəzi (Betsi, Kembric, Şərqi, Qərbi, Cənubi, Şimali Dördbucaq, Fletçer, Helen Nyuberi, Marta Kuk rezidensiyaları), Şimali (Beyts I və II, Bursli, Nortvud yataqxanaları) kampuslar və Hill Ərazisi (Kouzens, Alisa Loyd, Meri Markli, Moşer-İordaniya, Stokvell və Oksford yataqxanaları). Universitetin yataqxana sisteminə, eyni zamanda Henderson Haus, Hüquqşünaslar Klubu da daxildir. Elmi mərkəzlər Miçiqan Universitetinin yataqxanalarında da mövcuddur. Moşer-İordaniya Holl rezidensiyasında elmi-tədqiqat cəmiyyəti, Rezidensiya Kollecində ədəbiyyat, elm və incəsənət, şərqşünaslıq bölmələri fəaliyyət göstərir. 2006-cı ildə universitet Mərkəzi kampusun şimal hissəsində yeni yataqxana kompleksinin tikintisinə başlayıb.

Miçiqan Universitetinin nəzdində Memarlıq və şəhərsalma (1906), İncəsənət və Dizayn (1974), Ross biznes (1924), Təhsil (1921), Mühəndislik (1854), Rekhem ali (1912), İnformasiya (1969), Kineziologiya (1984), Hüquq (1859), Ədəbiyyat, elm və mədəniyyət (1841), Musiqi, teatr və rəqs (1880), Tibb (1850), Tibb bacısı (1893), Səhiyyə (1941), Stomatologiya (1875), Əczaçılıq (1876), Təbii resurslar və ətraf mühitin mühafizəsi (1927), İctimai siyasət (1914), Sosial fəaliyyət (1951) məktəbləri vardır. Ümumilikdə, universitetdə 3000 fakültə mövcuddur.

Miçiqan Universitetinin kitabxana sisteminə 13,5 milyondan çox kitab daxildir. Bu rəqəm hər il 195000 artır. Universitetdə 24 ayrı-ayrı bölmələrdən təşkil olunmuş 19 kitabxana vardır. Kitabxanalar, həmçinin təhsil müəssisəsi kimi fəaliyyət göstərərək tələbə, müəllim və tədqiqatçılara kurslar, proqramlar təklif edir. "JSTOR" adlanan verilənlər bazasında 750000 rəqəmsal səhifə yerləşdirilib. Universitet şəbəkəyə qoşmaq üçün "Google" axtarış sistemi ilə birgə razılaşma imzalayıb. 31 avqust 2006-cı ildə universitet, ilk mərhələ kimi, kitabların bir hissəsini artıq bu şəbəkədə yayımlayıb. Miçiqan Universitetinin nəşriyyatı və mətbuatı bu təhsil müəssisəsinin kitabxana sisteminin bir hissəsini təşkil edir.

Miçiqan Universitetinin muzeyləri Enn Arbor şəhərciyində cəmlənib. Mərkəzi kampusda Təbii tarix (eləcə də Paleontologiya), Kelsi arxeologiya və Təsviri incəsənət muzeyləri, Şimali kampusda isə Uorren Robbins və Slasser qalereyaları yerləşir. Təbii tarix muzeyinin Rutven binasında geologiya, paleontologiya, antropologiya sahəsinə, hindu mədəniyyətinə aid eksponatlar saxlanılır. Eləcə də burada quşların, həşəratların, suda-quruda yaşayan, sürünən canlıların əksər nümunələri, Miçiqanda tapılmış dinozavr qalıqları saxlanılan Zoologiya muzeyi mövcuddur. Miçiqan Universitetinin özünəməxsus, 110 min nəfərlik stadionu var. 1920-ci ildən burada mühüm yarışlar, eləcə də məzun günləri keçirilir. Tələbələr bu məkanı "Böyük ev" adlandırırlar.

## İdarəçilik

Miçiqan Universitetinin Dirborn və Flinte şəhərlərində iki regional kampusu, 1400 tələbə klubu və təşkilatı var. Ali məktəb 8 nəfərdən ibarət Himayədarlar Şurası tərəfindən idarə olunur. Şura 1837-ci il martın 18-də yaradılıb. Qurumun tərkibi 8 il müddətinə seçilir. 2014-cü il iyulun 1-dən Miçiqan Universitetinə Mark Şüsell rəhbərlik edir. O, universitetin sayca 14-cü prezidentidir. Onun ofisi Enn Arbor şəhərciyində qədim binada yerləşir. Universitetin kansleri Marta Pollakdır. Miçiqan Universiteti tələbələrə maliyyə yardımları təklif edir. Yardımlar 2 mənbədən - dövlət büdcəsindən və özəl yatırımlardan qaynaqlanır. Əcnəbi tələbələr üçün də müəyyən yardımlar mövcuddur. Təhsildə uğurlu nailiyyətlər göstərən əcnəbi tələbələr ümumi dəyəri ildə 2220 dollar təşkil edən beynəlxalq akademik təqaüd ala bilərlər. Universitetdə müəllim-tələbə nisbəti 15:1-dir. Bu isə təhsilalanlara fərdi yanaşmanı həyata keçirməyə imkan verir, nəticədə tədrisin nəticələrinin effektivliyi artır.

Universitetə qəbul olmaq üçün əcnəbi abituriyentlər ingilis dili üzrə test imtahanları (TOEFL və ya IELTS) verməlidirlər. Abituriyentlər TOEFL PBT üzrə 570-600, TOEFL iBT üzrə 88-100, IELTS üzrə 6.5-7 bal toplamalıdırlar. Hər il universitetə sənəd verən abituriyentlərin yalnız 1/3-i tələbə adını qazanır.

## Büdcəsi və təhsil haqqı

Ali məktəbin büdcəsi 7.05 milyard dollar təşkil edir. 2015-ci ildə universitetin ianə fondunun həcmi 221 milyon dollar artaraq 10 milyard dollara çatmışdır. Ayrı-ayrı 9200 mənbədən ayrılan ianə ali məktəbin stabil akademik uğurlarını təmin edir. Universitetin endaument fondu 2015-ci maliyyə ilində 10 milyard 250 milyon dollar təşkil edib. Ali məktəbin ianə fondu ABŞ-ın yeddinci, ABŞ dövlət universitetləri arasında isə üçüncü ən böyük fondudur. 2015-ci ildə ali məktəbin gəlirləri 13,3 milyard dollara çatıb. Ali məktəb 2015-ci ildə elmi tədqiqatlara 1,3 milyard dollar sərf edib. Universitetdə professor-müəllim heyəti 6771 nəfər təşkil edir. Ali məktəbin inzibati işçilərinin sayı 18986 nəfərdir. Universitetdə təhsil alan tələbələrin ümumi sayı 43625 nəfərdir. Bakalavrlar 28395, aspirantlar 15230 nəfərdir. Onların 65%-i ədəbiyyat, elm və mədəniyyət, 20%-i Mühəndislik məktəblərində təhsil alır. Tələbələrin 50,9 faizini oğlanlar, 49,1 faizini qızlar təşkil edir. Magistrlərin əksəriyyəti Biznes, doktorantların çoxu isə Ədəbiyyat, elm və mədəniyyət məktəblərində təhsil alır. Ötən tədris ilində Miçiqan Universitetinin illik gəlirləri 7.054.529.728, xərcləri 7.113.835.164 ABŞ dolları təşkil edib. Universitetin büdcəsi əsasən qrantlar, donorların ödəniş və yardımları sayəsində formalaşır. 2015-2016-cı tədris ilində Miçiqan Universitetində illik təhsil haqqı, orta hesabla, Miçiqan ştatının sakinləri üçün 14334, başqa yerlərdən gələnlər üçün 36934 ABŞ dolları təşkil edib. Digər zəruri xərcləri də nəzərə alsaq tələbələrin illik xərcləri 50226 dollara çatır. Ümumiyyətlə, ali məktəbdə tələbələrə bir cox güzəştlər olunur - maliyyə yardımları, qrantlar, iş yerləri, kreditlər və s. Universitetdə tələbə mühiti çox rəngarəngdir, burada dünyanın 115 ölkəsindən olan tələbələr təhsil alır. Ali məktəbin magistrlərinin 1/3-i əcnəbilərdir.



*Universitetin genetika laboratoriyasında*



*Universitetin stadionu*



*Universitetin 2016-cı il məzunları*

## Məşhur məzunları

Universitetin məşhur məzunlarından ABŞ-ın 38-ci prezidenti Cerald Fordun, Tayvanın sabiq maliyyə naziri Henri Honun, İordaniyanın xarici işlər naziri Marvan Qassemin, İordaniyanın təhsil naziri Xalid Toukanın, Misirin sabiq baş naziri Kamal Əhməd Qənzourinin, İtaliyanın sabiq baş naziri Lamberto Dininin, Meksikanın səhiyyə naziri Culio Frenkin, məşhur İsveçrə diplomatı (II Dünya müharibəsi dövründə minlərlə yəhudini xilas edib) Raul Vallenberqin, "Google" axtarış sisteminin yaradıcısı Lerri Peycun, "radikallar kimyasının atası" Mozes Homberqin, eləcə də Nobel mükafatı laureatlarının - Marşall Nirenberq, Tomas Ueller Stenli Koen (tibb və fiziologiya), Devid Pulitzer (fizika), Cerom Karal (fizika və kimya), Riçard Smollinin (kimya) adlarını çəkmək olar. Amerikanın "Apollon" proqramının müəlliflərindən biri, NASA-nın icraçılarından kosmonavt-mühəndis Cozef Frensis, Aya ilk ayaq basmış astronavtlardan Devit Skott, Adobe Photoshop-un müəllifi proqramçı Tomas Noll, adrenalini ilk dəfə kəşf etmiş Con Abel, müğənni Madonna Miçiqan Universitetində təhsil alıblar. Universitetin hazırda yaşayan məzunlarının sayı 575 mindən artıqdır ki, bu da universitet dünyasında ən yüksək göstəricilərdən hesab olunur.

**Oruc MUSTAFAYEV,**
*"Azərbaycan müəllimi"*